*F.Nəcəfova. İranda XX əsrin əvvəllərinə qədər satirik poeziyanın inkişaf tarixi // Əlyazmalar yanmır, 2022, № 1 (14), s.61-68.*

UOT: 82-09.

**Familə Nəcəfova**
*Filologiya üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti*
*Bakı ş., Z.Xəlilov küç. 33*
*e-mail: familanajafova@bsu.edu.az*

# İRANDA XX ƏSRİN ƏVVƏLLƏRİNƏ QƏDƏR SATİRİK POEZİYANIN İNKİŞAF TARİXİ

**Xülasə**

Bütün dünya xalqlarının ədəbiyyatında olduğu kimi, İran folklorunda, ədəbiyyatında qədim zamanlardan ta ki müasir dövrə qədər ölkənin həyatında baş verən bütün ictimai-tarixi hadisələr öz əksini tapmışdır. İranın folklor nümunələrində zülmkar hakimlərə həsr olunmuş və məsxərəbaz adlanan səyyar müğənnilər tərəfindən ifa edilən satirik məzmunlu mahnılar klassik poeziyada artıq konkret müəllifi olan satirik əsərlərlə əvəz olunmuşdur. Fars ədəbiyyatı tarixində X-XI əsrlər satirik nümunələrin həcv formasında yazılması dövrü kimi məşhurlaşmışdır. Bu həcvlər hakimlərə və bir-biri ilə rəqabət aparan şairlərə həsr olunurdu. Orta əsrlər İranının müdrikləri, dünya ədəbiyyatında adını həkk etdirmiş dahi sənətkarları da zülmkar hakimləri məhz satira vasitəsilə tənqid hədəfinə tutmaq üsulunu seçmişdir.

1905-1911-ci illər İranda Məşrutə inqilabı dövründə yazılan satira isə fərqli xarakter daşımağa başlayır. Fars ədəbiyyatında demokratik poeziyanın formalaşdığı bu dövrdə antiimperialist və demokratik fikirlər poeziyasının aparıcı qüvvəsinə çevrilmişdi. Bu dövrdə İranda dövrü mətbuat gündəmə gəldi. İnqilabın ilk dövrlərində səhifələrində dövrün ictimai-siyasi məsələlərini satirik nümunələrdə əks etdirən məqalələr dərc edən 150-yə yaxın qəzet və jurnal nəşr olunurdu. Satirik məzmunlu qəzet və jurnallarda mövzu ilə əlaqədar karikaturaların da yer alması onların daha da məşhurlaşmasına səbəb olan amil olmuşdur. Demokratik ədəbiyyatın inkişafının zirvəsinə çatdığı XX əsrin I yarısında İranın mütərəqqi şairləri istər satirik əsərlər daxilində, istərsə də müxtəlif satirik jurnal və qəzetlərin səhifələrində ölkənin ictimai həyatını və hakim dairələri kəskin tənqid edirdi.

***Açar sözlər:*** *həcv, təsnif, satirik məzmunlu ilk yazılı əsərlər, sarkazm xarakterli epiqramma, demokratik poeziya, kəskin tənqid, satirik jurnal və qəzetlər*

## Giriş

*İran xalqı yadellilərin müdaxiləsinə və onlara ölkədə ağalıq etməyə imkan yaradan hakimiyyətə qarşı zaman-zaman müqavimət göstərmiş və bu mübarizəni istər döyüş meydanında, istərsə də ədəbiyyat sahəsində aparmışdır. Ölkədə gedən mübarizə şəraitində yetişən yazıçı və ziyalıların vətən qarşısında, xalq qarşısında vəzifə və borcları yaratdıqları əsərlərdə, söylədikləri sözlərdə əksini tapmışdır. Yaradıcı insanın, bədii söz ustadlarının ictimai mühitə təsiri hər zaman güclü olmuşdur. Bu mübarizə yolunda addımlayan bəzi mütərəqqi şairlər fikirlərinin ifadəsi üçün satira janrını seçməyə üstünlük vermişdir. Satirik janrın tədqiq edilməsi bir daha sübut edir ki, bu janrın inkişafı məhz millətin zülmə düçar olduğu illərə təsadüf etmişdir. İranlı satira ustadlarının məqsədi xalqı mənafeyi uğrunda mübarizəyə səsləmək idi. Onlar mövcud həyat şəraitinin çətinliyini, real vəziyyəti aydın şəkildə işıqlandıraraq xalqı birləşməyə və ədaləti bərpa etməyə şövq edirdilər.*

İran millətinin nağıl, lətifə, zərbül-məsəl, xalq təranələri yumorla zəngindir. Lakin təəssüf ki, İran folklorunun bir qədər gec toplanmağa başlanması nəticəsində əvvəlki dövrlərə aid folklor nümunələri dövrümüzə gəlib çatmamışdır. Dövrümüzə çatmış satirik əsər nümunəsi 726-cı ilə aid olan Xutlan vilayətinin hakimi ibn Əsədulla Xutlaniyə aiddir. Türk xaqanı tərəfindən məğlubiyyətə uğrayan bu qoşun rəisi Bəlxə qaçmalı olur. Xalq onun haqqında satirik həcvlər qoşaraq küçələrdə oxuyurmuş:

از ختلان آمدیه برو تباه آمدیه
آبار باز آمدیه خشک و نزار آمدیه

(Xutlandan gəldin, rüsvay olmuş sifətlə gəldin
Evsiz-eşiksiz gəldin, qurumuş və arıqlamış gəldin)

Qeyd olunmalıdır ki, təxminən 12 əsr sonra 1909-cu ildə İrandan qaçan Məhəmmədəli şah haqqında eyni məzmunlu satirik həcv qoşulmuşdu.

ممدلی شاه قرب کو؟ توپ شنیدرت کو؟

(Sənin hörmətin hara getdi Məmmədəli şah?
Sənin məşhur topun hara getdi?) [9, s.48]

Qədim zamanlardan İranda baş verən bütün hadisələrə aid satirik mahnılar qoşulurdu və məsxərəbaz adlanan səyyar müğənnilər tərəfindən ifa olunurdu. XIX əsrin 90-cı illərində İrana səfər etmiş məşhur şərqşünas alim V.A.Jukovskiy "Образцы персидского народного творчества" əsərində İranda təsnif adlanan bir neçə belə mahnıdan nümunə göstərmişdir.

Təsniflər məşhur şairlərin şerlərinə xalq təranələrindən əlavə etməklə qurulurdu. Təsniflərin mövzusu müxtəlif olsa da ən çox müraciət edilən mövzular hakimlərin dəyişməsi, ərzağın qiymətinin artması, vergilərin çoxalması və xalqın güzəranını daha da pisləşdirən polis məmurlarının həyata keçirdiyi işlərə həsr edilirdi. Səyyar müğənnilər hakim dairələrin onlara təzyiqinə məhəl qoymadan ölkənin hətta ən ucqar yerlərində ictimai-siyasi məzmunlu təsniflərini ifa edirdilər. Belə təsniflərə nümunə olaraq İranın bütün şəhər və kəndlərində məşhur olan "Leyla" təsnifini göstərmək olar. Təsnifin mövzusu Nəsrəddin şahın 1879-cu ildə Tehran polisinin rəisi vəzifəsinə təyin etdiyi qraf Monteforta həsr edilmişdir. Qraf əha-

linin rəğbətini qazanmaq məqsədilə övladlarına farsların adət-ənənələrinə riayət etməyə məcbur edirdi və bu məqsədlə də qızını Leyla adlandırmışdı. [2, s.57]

İsfahanın qubernatoru Ziya-us Sultana həsr edilmiş təsnif daha çox məşhurluq qazanmışdı. 1888-ci ildə Nəsrəddin şah oğlunun onun taxt-tacına yiyələnməsinə çalışmasından şübhələnir. Nəticədə Ziya-us Sultan Avropaya qaçmalı olur. Xalq vərəsəlik hüququndan məhrum olmuş şahzadə üçün təsniflər qoşaraq onu ələ salır.

کو اصفهان پایتخت من کو توپچی و کو تخت من
کو حکمهای سخت من ای خدا ببین این بخت من
شاه بابا گناه من چه بود این روز سیاه من چه بود

(Mənim paytaxtım İsfahan hardadır
Hanı mənim topçum, hanı mənim hakimiyyətim
Hanı mənim sərt əmrlərim
Ey Tanrı mənim bəxtimə bax
Şah ata mənim günahım nə idi
Bu nə qara günlərdir mənim qismətimə çıxıb) [5, s. 71]

İran millətinin ağır həyat tərzini təsvir edən təsniflər şifahi şəkildə ağızdan ağıza ötürülürdü və mütəmadi olaraq dəyişikliyə uğrayıb təkmilləşirdi. Xalqı aclıq və səfalətə düçar edən zülmkar şahlar, qubernatorlar haqqında olan təsniflərdə bəzən hətta söyüş də yer alırdı.

Satirik məzmunlu ilk yazılı əsərlər keçi və palma ağacının dialoqu haqqında olan pəhləvi ədəbiyyatının nümunəsi "Draxt-e Assurik" və soqdi ədəbiyyatının nümunələri arasından tapılmış "Tacir və mirvari cilalayan" adlı elmi mübahisəyə həsr edilmiş əsərlərdir. Klassik fars-tacik poeziyasının əsasını qoymuş Abdulla Cəfər ibn Rudəki Səmərqəndinində şeirlərində sarkazm xarakterli epiqrammalara[1] rast gəlinir. Klassik poeziyanın nümayəndələrindən olan Əbülhəsən Şəhid ibn Hüseyn Bəlxinin poeziyasında rəqib şairlərə qoşduğu həcvlər[2] klassik satirik poeziyanın nümunələrindəndir. Əbülqasım Firdovsinin Sultan Mahmud Qəznəviyə həsr etdiyi həcv klassik satirik əsərlərin ən məşhur nümunəsi hesab edilir.

İranda X-XII əsrlərdə satirik poeziya sahəsi həcv yazmaq istiqamətində inkişaf etməyə başlayır. X əsrin məşhur satirik şairi Əbdülrəhman Müşviqi Buxarayi sosial məzmunlu kəskin həcvləri ilə adını ədəbiyyat tarixində əbədiləşdirmişdir. Hətta bizim əsrimizdə də aktuallığını itirməyən bu həcvlər 2018-ci ildə Seyidəli Musəvi Gərmarudi tərəfindən toplu şəklində Tehranda yenidən işıq üzü görmüşdür.

XI-XII əsrlərdə isə Əbu Muinəddin Nasir Xosrov əl-Qubadyani əl-Mərvəzi Ələvi, Övhəddin Əli ibn Mahmud Ənvəri, Suzani Səmərqəndi (Əbu Bəkr Şəmsəddin Məhəmməd ibn Əli) adlı şairlərin hakim dairələri tənqid edən kobud ifadələrlə zəngin olan həcvləri isə orta əsr poeziyasında satirik poeziyanın parlaq nümunəsi hesab edilir. Bu dövrdə təkcə hakim dairələrə deyil, rəqib şairlərin bir-birinə yazdığı həcvlər dəməşhur idi. Nümunə olaraq, Əbu Məhəmməd Rəşidi Səmərqəndinin onun şerlərini tənqid edən Buxaralı şair Amiaka yazdığı həcvi göstərmək olar.[1, s.29]

[1] Epiqramma – hansısa şəxsi və ya hadisəni məsxərə obyektinə çevirən satirik şeir nümunəsi.
[2] Həcv –satiranın şəxsi məzmun daşıyan, vulqar sözlərlə zəngin, etik çərçivə gözlənilmədən yazılan şeir növü.

Riyakar ruhaniləri məsxərə obyektinə çevirən orta əsrlər dövrünün müdriki Əbu Əli Hüseyn ibn Abdullah Həsən ibn Əli ibn Sinanın və şair, riyaziyatçı, astronom və filosof Qiyasəddin Əbulfəth Ömər ibn İbrahim Xəyyam Nişapurinin satirik rübailəri məşhurdur. XIII əsrin görkəmli şairi, qəzəl janrının ən görkəmli nümayəndələrindən biri Sədi Şirazinin (Müslihiddin Müşrif ibn Abdulla) yaradıcılığında zülmkar şahların, riyakar şeyx və mollaların, xəsis tacirlərin tənqidi əhəmiyyətli yer tutur. Zülmkar hakim dairələrin, ədalətsiz və rüşvətxor məhkəmə hakimlərinin, riyakar mollaların tənqidinə XIII-XIV əsrlərin dahi şəxsləri olan islam və təsəvvüf dünyasında tanınmış şair, mövləvi yolunun öncülü, vəhdəti-vücud (panteizm)fəlsəfəsinin tanınmış nümayəndəsi Mövlana Cəlaləddin Məhəmməd Rumi, sufi şair, qəzəl ustadı Xoca Şəmsəddin Məhəmməd Hafiz Şirazi, şair, musiqişünas, filosof və alim Əbdürrəhman Cami (Əbdürrəhman Nurəddin ibn Əhməd) kimi məşhurların və o cümlədən,azərbaycanlı alim və ilahiyyatçı Nəsirəddin Tusinin yetirməsi, alim və şair Qütbəddin Şirazinin, şair Məcd Həmgər Yəzdi (Xace Məcdəddin Həbiullah ibn Əhməd ibn Yusif Həmgər), Mövlana Şərəfəddin Damğani, Həkim Nizarinin(Sədəddin Nizari Qəhestani (Kuhestani)) yaradıcılığında da rast gəlinir.

XIV əsrin məşhur satiriki Übeyd Zakaninin adı ədəbiyyat tarixində sadə millətin hüquqlarını müdafiə edən şair kimi əbədiləşmişdir. Onun əsərlərində monqol zülmünün hakim olduğu dövrün dərin sosial qarşıdurmaları öz əksini tapmışdır. Ü.Zakani "اخلاق الاشرف" (Əsilzadələrin əxlaqı) adlı satirik əsərində hakim dairələrin əxlaq dəyərləri kəskin satira atəşinə tutulur. "رساله ی ریش"(Saqqal haqqında olan risalə) əsərində şair uzun saqqal saxlamaqla bütün bəd əməllərini ört-basdır edən feodal təbəqəni, məmurları, mollaları ələ salır. Lüğət formasında yazılmış "ده فصل" (On fəsl) əsərində Zakani sarayda mövcud olan həyat tərzini məsxərəobyektinə çevirir. "صد پند" (Yüz nəsihət), "مکتوب کلنتران" (Səyyar dərvişlərin məktubu), "خزليّات" (Lətifələr), "رساله ی دلگشا" (Heyranedici risalə) əsərlərində Ü.Zakani sosial çatışmazlıqları satira vasitəsilə ifşa edir. "موش و گربه" (Siçan və pişik) satirik əsəri dərin ictimai məna kəsb edir və ən məşhur əsəri hesab edilir və şairin adını ədəbiyyat tarixinə görkəmli satirik kimi həkk etmişdir.

XVIII əsrdə yazıb-yaradan Mirzə Rəhim Yəğma Cəndəginin evini, ailəsini talan edib yağmalayan sərdara satirik janrda qələmə aldığı "سرداريّه" (Sərdariyyə) poemasının özünəməxsus quruluşu var. Belə ki, poema mədhiyyə ilə başlayır, lakin sonra məlum olur ki, əslində şair "qəhrəmanını" məsxərəyə qoyur, əsərin sonuna yaxın isə çox kobud ifadələrlə onu ifşa edir. XIX əsrdə Mirzə Həbibullah Qaani Şirazinin acı yumorla zəngin satirik şerləri fars ədəbiyyatının inciləri sırasında yer almışdır.

1905-1911-ci illər İranda Məşrutə inqilabı dövründə yazılan satira fərqli xarakter daşımağa başlayır. Belə ki, bu dövrdə fars poeziyası sanki yeni mərhələyə qədəm qoymuşdur. Seyid Əşrəfəddin Gilani, Dehxoda, Məliküşşüəra Bahar, Arif Qəzvini kimi şairlərin satirası artıq ictimai həyatda önəmli mövqeyə malik olan konkret istiqamət alır. Belə ki, antiimperialist və demokratik fikirlər onların poeziyasının aparıcı xüsusiyyətinə çevrilmişdi. Bu dövrün poeziyasında xalqın ümid və həyəcanlarının əks olunması mütləq xarakter daşıyırdı və sanki xalqın səsinə çevriləcək şüar anlamlı şerlərin yazılmasına zərurət yaranmışdı. Dövrün şairləri bu xüsusiyyətləri özündə ehtiva edən folklor janrı olan təsnifə müraciət edir və beləliklə də şifahi ədəbiyyata aid olan bu janr yazılı ədəbiyyata gətirilir. Lakin məhdud dairənin marağında olan mövzuları əhatə edən şifahi xalq ədəbiyyatının bu

nümunəsi artıq yazılı ədəbiyyat nümunəsi kimi milli xarakterli mövzuları özündə əks etdirərək daha geniş dairənin maraqlarını müdafiə edirdi.

Məşrutə inqilabı dövründə İranda dövrü mətbuat gündəmə gəldi. İnqilabın ilk dövrlərində səhifələrində dövrün ictimai-siyasi məsələlərini satirik nümunələrdə əks etdirən məqalələr dərc edən 150-yə yaxın qəzet və jurnal nəşr olunurdu. İranın satirik ədəbiyyatının inkişafında 1906-cı ilin aprelində Tiflisdə "Molla Nəsrəddin" jurnalını nəşr etdirən Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir kimi azərbaycanlı mütəfəkkirlərin böyük rolu olmuşdur. "Molla Nəsrəddin" jurnalında dövrün ictimai-siyasi sahələrini işıqlandıran felye-ton və şerlər, karikaturalar yerləşdirilirdi. Bu jurnal İranda, xüsusilə də Cənubi Azərbaycada məşhur idi. Hətta Mirzə Ələkbər Sabirin əsərlərinə yeni bəndlər əlavə edilir və nəzirələr yazılırdı. Bunlara nümunə olaraq Mirzə Ələkbər Sabirin "Hop-hop" təxəllüsü ilə şerlərinə nəzirə olaraq yazılmış məşhur "تصنیف با کلام مناره خانم"(Minarə xanım sözü ilə təsnif) şerini göstərmək olar.

Məşrutə inqilabı dövrünə aid ədəbiyyatın inkişafında "نسیم شمال"(Şimal küləyi) adlı satirik qəzetin əhəmiyyətli rolu olmuşdur. Qəzet 1907-ci ildə Rəştdə şair Mirzə Əşrəfəddin Gilaninin redaktorluğu altında nəşr olunurdu. Dərc olunan şerlərin sayına görə bu qəzet həmin dövrə aid satirik nəşrlərin sırasında birinci yeri tuturdu. Qəzetin demək olar ki, hər nömrəsində Əşrəfəddin Gilaninin "Xərabəli Mirzə" təxəllüsü ilə yazılmış kəskin məzmunlu satirik şerləri yer alırdı. Yaradıcılığında qadın hüquqlarının müdafiəsi xususi yer tutan Əşrəfəddin Gilaninin "شاهنامه" ("Şahnamə"), "فقیر و فقرا" ("Fəqir-füqara"), "مقایسه ی وضعیّت فقرا و ثروتمندان"("Yoxsulların və dövlətlilərin vəziyyətinin müqayisəsi") və başqa şeirlərində o vaxtkı şah hökumətinin iç üzünü kəskin satira ilə ifşa etmişdir.Şairin irticaçı qüvvələri ifşa edən xarici imperialistlərin zülmünə düçar olmuş vətəninə həsr etdiyi "ای وای وطن وای" (Ey vay vətən) təsnifi məşhurluq qazanmışdır.(5, s.119)

Məşrutə inqilabı dövründə Cahangir xan Şirazinin redaktorluğu, Mirzə Əliəkbər Dehxodanın naşirliyi ilə çap olunan "صور اسرافیل" (İsrafilin suru) qəzeti satirik məqalələri ilə gündəmə gəldi. Qəzet iranlı yazıçı, şair, lüğət tərtibçisi və publisist, "Dəxu təxəllüsü ilə yazıb-yaradan Mirzə Əliəkbər Dehxodanın adı ilə tarixə düşmüşdür. Qəzetin satirik məqalələr üçün ayrılmış "چرند و پرند"adlı satirik bölməsində Dehxodanın ictimai-siyasi mövzulara həsr edilmiş pamflet[1] və felyetonları[2] və satirik şer nümunələri nəşr olunurdu. Bu satirik nümunələrdə kəndlilərin ağır həyat tərzi, şəhər əhalisinin dözülməz güzəranı, iranlı qadının kölə həyatı, rüşvətxor və fırıldaqçı mollaların əməlləri, mövcud rejimin eybəcərlikləri əlvan satirik çalarlarla təsvir olunurdu.

1905-1911-ci illər Məşrutə inqilabı dövründə görkəmli İran şairi Məlikuşşüəra Bahar (Mirzə Məhəmməd Təqi Səburi) yaradıcılıq yolunda ilk addımlarını atmışdır. Yaradıcılığının ilk dövrlərində Qacarlar sülaləsini lənətləyən M.Bahar 1909-cu ildə inqilabçı qoşunun Tehrana daxil olması ərəfəsində "خراسان" (Xorasan) qəzetində Məhəmmədəli şaha həsr etdiyi "کار ایران با خداست" (İranın işi Allaha qalıb) adlı satirik şerini yazaraq ədəbiyyat tarixinə adını

[1]Pamflet – həcmcə böyük olmayan, konkret, əsasən, sosial-siyasi ifşa xarakterli publisistik əsər. Pamfletdə yaramaz ictimai quruluş, ayrı-ayrı şəxslərin, yaxud müəyyən siyasi partiyanın, qrupun, müəssisənin cinayətkar fəaliyyəti və s. kəskin satira atəşinə tutulur.

[2]Felyeton – qəzet-jurnal səhifələrində çap olunan əsərlərin, əsasən, satirik şeirin xüsusi növü. Həm nəsr, həm də nəzmlə yazılan felyetonda ictimai həyatın mənfi cəhətləri tənqid olunur və məsxərə edilir.

inqilabçı şair kimi həkk etdirdi. Sonralar şairin bu mövzuda dahi klassik Sədi Şirazinin şerlərinə nəzirə olaraq yazdığı "پند سعدی" və 1907-ci ildə ingilis imperialistlərini tənqid edən "نفریننامه" (Lənət poeması) satiraları da məşhurluq qazanmışdır.

XX əsrin görkəmli satirikləri arasında fars ədəbiyyatı tarixində siyasi təsnifat və siyasi qəzəl janrının yaradıcısı şair, musiqişünas Əbülqasım Arif Qəzvininin də xüsusi mövqeyi var. Onun yaradıcılığının çiçəklənmə dövrü Məşrutə inqilabı dövrünə təsadüf edir. Musiqi istedadı olan Arif Qəzvini satirik təsniflər qoşaraq İranın iri şəhərlərində konsertlər də keçirirdi. Rza şahın hakimiyyətə gəlməsindən sonra şair tutduğu mövqeyinə görə cəzalandırılaraq Həmədana sürgün edilir və burada yoxsulluq içində dünyasını dəyişir. Arif Qəzvininin ruhaniləri, dövlət məmurlarını və şahı məsxərəyə salan dərin ictimai-siyasi mənalı "دردریّات"(Oyun-oyuncaq) adlı toplusu fars satirik poeziyasının inciləri sırasına daxil edilmişdir. 1920-ci illərin əvvəllərində İranda ictimai həyatın kökündən dəyişilib yenidən qurulmasının vacibliyini anlayan Arif Qəzvini bu mövzuda "خرنامه" (Uzunqulaq haqqında poema) adlı satirik poemasını qələmə almışdır.

1920-1930-cu illərdə İranda satira janrı aktuallığını itirsə də İrəc Mirzə, Mirzadə Eşqi və Fərruxi Yəzdinin yaradıcılığında bu janrın nümunələrinə rast gəlinir.

XX əsrin I yarısında İranın ictimai həyatını və hakim dairələri kəskin tənqid edən "Cəlalülməmalik" ləqəbi ilə tanınan İrəc Mirzənin "عارف نامه" (Arifnamə) satirik əsəri məşhurluq qazanmışdır. İrəc Mirzənin həm romantik eşq həm də satirik mövzular yer almış divanında şahı məsxərə obyektinə çevirən satirik sətirlərə çox rast gəlinir. Onun bu mövzuda yazılmış satirik şerlərinə "اشک شیخ" (Şeyxin göz yazı), "حجاب" (Hicab), "بشنو که لطیفه ی قشنگیست" (Qulaq as necə gözəl lətifədir), "در باره ی مستشران آمریکایی" (Amerikalı müşavirlər haqqında) adlı əsərlərini nümunə göstərmək olar.

Publisist şair Mirzadə Eşqi siyasi intriqa fonunda dövlət məmurlarını və Milli Məclis deputatlarını ifşa edən satirik şerləri ilə məşhurluq qazanmışdır. Bu şerlərə nümunə olaraq Mirzadə Eşqinin "دیدی چه خبر بود؟" (Gördün nə oldu?), "بشنو و باور نکن" (Eşit və inanma), "کلاه نمدی ها" (Keçə papaqlılar), ingilis-Uran sazişinə etiraz olaraq "به نام عشق وطن" (Vətənin eşqi adına) satirik şerlərini göstərmək olar. 1924-cü ildə Mirzadə Eşqi "قرن بیستم" (XX əsr) adlı qəzetində Rza şahı təhqir edən karikatura və satiraları dərc etdirdikdən sonra naməlum muzdlu qatillər tərəfindən evində güllələnmişdir.

İnqilabçı şair, "Tacüşşüəra" ləqəbi ilə tanınan Məhəmməd İbrahim Fərruxi Yəzdi dəfələrlə xəbərdarlıq edilib təqiblərə məruz qalmasına baxmayaraq Rza şahın diktaturasına qarşı ömrünün axırına qədər mübarizə aparmışdır. Şairin ingilislərin müstəmləkəçi siyasətini ifşa edən "لرد کرزن عسبانی شده است" (Lord Kerzon əsəbləşib) satirik mahnısı məşhurluq qazanmışdı. Şair 1922-ci ildə çap etdirdiyi azadlıq uğrunda mübarizə silahı olan"طوفان" (Tufan) qəzetində hakim dairələri, məmurları, şahı satira atəşinə tuturdu. Lakin 1925-ci ildə hakimiyyətə gələn Rza şah Pəhləviyə qarşı təkbaşına mübarizə apara bilməyən F.Yəzdi vətənini tərk edib Almaniyaya mühacirət edir. Berlində dövrü şəkildə fars dilində çap olinan "پیکار" (Döyüş) jurnalının səhifələrində İranda qurulan yeni hakimiyyəti ifşaedici satirik üslubda yazdığı şer və məqalələri ilə çıxışlar edirdi.

**Nəticə**

*Tədqiqatın nəticəsi olaraq qeyd etməliyik ki, xalq təranələri, təsnifləri ilə zəngin olan fars ədəbiyyatı folklorun formalaşdığı dövrdən başlayaraq İran tarixinin müxtəlif mərhələlərində satira janrına müraciət etmişdir. Zülmkar hakimlərə, ölkədə ağalığı ələ keçirməyə çalışan imperialistlərə qarşı mübarizə silahına çevrilmiş satira poeziya sahəsinə də sirayət etmiş və ölkədə baş verən bütün hadisələrə həssaslıqla münasibət bildirmişdir.*

**Ədəbiyyat siyahısı:**


1. Брагинский И.С. Очерки из истории таджикской литературы, Сталинабад, Таджикгосиздат, 1956 (452 стр.)
2. Жуковский В.А. Образцы персидского народного творчества. Санкт-Петербург, типография И.Бораганского и Ко, 1902 (282 стр.)
3. Иванов В.А. Несколько образцов персидской народной поэзии. Санкт-Петербург, Типография Императорской Академии Наук, 1915 (422 стр.)
4. Arberry A.J. Modern Persian reader. Cambridge, Publisher Cambridge University Press, 1944 (219 p.)
5. Browne E.G. The Persian Revolution of 1905-1909. Cambridge, American Political Science, 1910 (470 p.)
6. Browne E. The press and poetry of modern Persia. Cambridge, Cambridge University Press, 2007 (498 p.)
7. توفیق. هفته نامه ی طنزآمیز ایران. مجلهٔ فکاهی- سیاسی. تهران، جلد یازدهم، ۱۳۲۳(۲۶ ص.)
8. ذبیح الله صفا. تاریخ ادبیّات در ایران. جلد دوّم. تهران، ۱۳۲۶ ( ۵۹۸ ص. )
9. عبّاس اقبال آشتیانی، ابراهیم پورداود. بیست مقاله ی قزوینی (جلد اوّل)، تهران، اساطیر، ۱۳۹۱ (۴۶۴ ص.)


**Famila Najafova**

**The history of the development of satirical poetry in Iran until the beginning of the XX$^{th}$ century**

As in the literature of all the peoples of the world, Iranian folklore and literature reflected all the socio-historical events that took place in the life of the country from ancient times to the present. In Iranian folklore, satirical songs dedicated to despotic rulers and performed by itinerant singers called "masharabaz" later give way to satirical works of classical poetry that already have a certain author. In the history of Persian literature, the X$^{th}$ and XI$^{th}$ centuries became famous as a period of satirical examples in the form of "hajvs". These satirical examples were dedicated to heads of state and poets competing with each other. The sages of medieval Iran, brilliant masters of the word, who made a name for themselves in world literature, also chose the method of criticizing despotic rulers through satire.

The satire that arose in Iran during the Constitutional Revolution of 1905-1911 began to take on a different character. At a time when democratic poetry was taking shape in Persian

literature, anti-imperialist and democratic thought became the leading force in poetry. Periodical literary magazines appeared in Iran during this period. In the first days of the revolution, about 150 newspapers and magazines published articles that satirically reflected the socio-political problems of that time. Satirical newspapers and magazines also published cartoons on the subject, which made them even more popular. In the first half of the 20th century, when the development of democratic literature reached its peak, progressive Iranian poets sharply criticized the social life of the country and the ruling circles both in satirical works and on the pages of various satirical magazines and newspapers.

***Key words:*** *hajv, tasnif, first written works of satirical content, epigram in the nature of sarcasm, democratic poetry, harsh criticism, satirical magazines and newspapers*

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Əkrəm Bağırov** tərəfindən çapa tövsiyə olunmuşdur.